## AR NRYTN “AzInTelecom” MMC-nin Sertifikatlaşdırma departamenti

# MƏXFİLİYİN QORUNMASINA DAİR BƏYANNAMƏ

AR NRYTN “AzInTelecom” MMC-nin rəhbərliyi Sertifikatlaşdırma departamentinin sertifikatlaşdırma zamanı AZS ISO/IEC 17065-2014 “Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılması üzrə orqanlara olan tələblər” standartının məxfiliyin qorunmasına qarşı irəli sürdüyü tələblərinə cavab verən fəaliyyətin həyata keçirməyini öhdəsinə götürür.

**Sertifikatlaşdırma departamenti fəaliyyəti zamanı məxfiliyin qorunması üçün qarşısında aşağıdakı məqsədləri qoyur:**

- uyğunluğun qiymətləndirilməsinin və sertifikatlaşdırma ilə bağlı icra etdiyi bütün digər fəaliyyət növlərinin həyata keçirildiyi zaman məxfiliyin qorunmasını;
- sertifikatlaşdırma prosesində maraqları təmsil edilən bütün tərəflərin, o cümlədən sertifikatlaşdırma sifarişçilərinin və dövlət akkreditasiya və nəzarət orqanlarının maraqlarının qorunmasını.

**Qeyd olunmuş məqsədlərə nail olmaq üçün Sertifikatlaşdırma departamenti qarşısında aşağıdakı vəzifələri qoyur:**

- məxfiliyin qorunması üzrə prosedurların işlənməsini, onların tətbiqini və təkmilləşdirilməsini;
- sifarişçilərdən alınan hər hansı sənədlərin və məlumatların məxfiliyinin qorunmasını;
- departament heyətinə məxfiliyin qorunması tələblərinə cavab verən şəxslərin cəlb edilməsini.

**Məxfiliyin qorunmasına dair siyasətin həyata keçirilməsi üzrə məsuliyyətini dərk edərək, AR NRYTN “AzInTelecom” MMC-nin rəhbərliyi aşağıdakıları öhdəsinə götürür:**

- qeyd olunmuş vəzifələri icra edərək məqsədlərinə nail olmaq üçün müvafiq şəraitin təmin edilməsini;
- departament heyətinin və rəhbərliyinin məxfiliyin qorunması üzrə cavabdehliyinin müəyyən edilməsini.

**AR NRYTN “AzInTelecom” MMC-nin direktor müavini, direktor v.m.i.e.** ______ imza **Tağı Tağı-Zadə**

M.Y.

**Tarix: 29 mart 2021-ci il**

**AIT-SD-PL(Məxfiliyin qorunmasına dair Bəyannamə)-2.0**

Vizalar:

| Ad və soyad | Vəzifə | İmza | Tarix (DD/MM/YYYY) |
|---|---|---|---|
| Orxan Mikayılov | Sertifikatlaşdırma departamentinin rəhbəri | | 29.03.2021 |